

■ Balaxan QƏRİB

## GƏLMİŞƏM

Bu gəlişə, bu dönüşə sirr demə,
Mən özümü sıxa-sıxa gəlmişəm.
Bacarsaydım qayıtmazdım bir də mən,
Ürəyimlə əlbəyaxa gəlmişəm.

Dönüş yeri qoymamışdım gedəndə,
Az eşitdim, çox danışdım gedəndə.
Gözlərinə dik baxımşdım gedəndə,
İndi yerə baxa-baxa gəlmişəm.

Getməmişdim tamam gedər gəlməzə,
Gələsiyəm, istəyirsən gəlmə sən.
Bu dərd məndən küsüb gedər, gəlməsəm,
Mən təzədən darıxmağa gəlmişəm.

## DƏYİŞ BU BÜNYANI...

Bağlı olmasaydım sənə, İlahi,
Asardım özümü yer kürəsindən.
Ümid sənə qalıb yenə, İlahi,
Dəyiş bu dünyanı bünövrəsindən.
Dəyiş torpağını, daşını, dəyiş,
Lap elə dünyanın yaşını dəyiş.
Suyunda bir azca havası olsun,
Qurtarsın havanın canı zəhərdən.
Dəyiş, elə dəyiş bu dünyanı ki,
Sıfırdan başlansın xatirələrdə.
Çap, dağıt dünyanı, yenidən yarat,
Yenidən bir Həvva, bir Adəm yarat.
Yeni sevinc yarat, yeni qəm yarat,
Biri olan yerdə biri olmasın.
Dəyiş adamları, hamını dəyiş,
Canını, ruhunu, qanını dəyiş.
Hərə öz üzünün yiyəsi olsun,
Özünün, sözünün yiyəsi olsun.
Elə et, dünyada millət olmasın,
Ədavət olmasın, sərhəd olmasın.
Fəsillər yenə də həmənki olsun,
Yazda çiçək açsın, qışda qar olsun.
Yenə günəş gülsün xoş günümüzdə,
Bizə gün ağlayan buludlar olsun.
Buluddan yuxarı qoyma insanı,
Buluddan aşağı çeni tanısın.
Sil bütün dillərdən MƏN kəlməsini,
Hamı başı üstə SƏNİ tanısın.

## ÖLÜRƏM

Halımı soruşdun, çox sağ ol, canım,
Hələlik adımca keçir həyatım.
Elə hey iki cür olur ovqatım,
Hərdən yaşayıram, hərdən ölürəm.

Bilməzsən - yüzü də keçsə - yaşımı,
İçimdə bir dəli sevda yaşadır.
İnsanı dərd doğur, dərd də yaşadır,
Öldürür, kim deyir "dərddən ölürəm"...

İçim dünya kimi özünə əngəl,
Bir üzü günəşli, bir üzü kölgə.
Ömrümün ən xoşbəxt günüdür, bəlkə,
Sənə vurulduğum yerdən ölürəm.

## NECƏDİ...

O dünyadan gələn adam,
Orda havalar necədi...
Nəvələri naçar qoyub,
Gedən babalar necədi...

Əcəl baltalı-bıçıqlı,
Biz önündə qolu bağlı.
Orda mənim tək otaqlı,
Bir mənzilim var, necədi...

Bu, atın çapan dünyadı,
Neyniyəsən, ta dünyadı.
Axı ora da dünyadı,
Orda ölüm var... Necədi...

